# *Leyla ABDULLAYEVA:*

# "Paris-2024" Azərbaycan idmançıları üçün ən möhtəşəm Olimpiada olacaq"

"Möhtəşəm qələbəmizin sevincini yaşayırıq. Olimpiya Oyunları davam edir, qələbəmizin ardı gələcək, buna çox inanırıq. Bu gün bizim üçün çox əlamətdar gündür, çünki cüdo idmanında ikinci qızıl medalımızı qazandıq".

Bu fikirləri Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva AZƏRTAC-a müsahibəsində deyib. Bildirib ki, digər idman növləri üzrə də qızıl medallar gözləyirik. Boks üzrə idmançılarımız da yarışlara başlayırlar. Qarşıdan gələn günlərdə onlardan da qızıl medalımız olacaq. Çox sevinirik. Sevinc, qürur, fəxr, həyəcan dolu xoş qarışıq hisslər içərisindəyik. Səfir qeyd edib ki, burada yaşayan bütün azərbaycanlılar idmançılarımızı yüksək səviyyədə dəstəkləyir. İdmançılarımız da bilirlər ki, bütün xalqımız onlarladır.



Deyə bilərik ki, idmançılarımız "Paris-2024" Olimpiya Oyunlarında tarix yazırlar.

Medal proqnozu ilə bağlı səfir L.Abdullayeva bildirib ki, idmançılarımızdan 9-dan çox medal gözləyir.

"Paris-2024" Yay Olimpiya Oyunları Azərbaycan idmançıları üçün ən möhtəşəm Olimpiada olacaq", - deyə səfir Leyla Abdullayeva vurğulayıb.

Azərbaycan.- 2024.- 3 avqust (№ 163).- S.7.